**Bakıda fəaliyyət göstərən marketdə nöqsanların aşkarlanmasına dair məlumat**

**(4 avqust 2023)**

Daxil olmuş vətəndaş müraciəti əsasında Bakı şəhəri, Qaradağ rayonu, Lökbatan ştq, S.Orucov küçəsi, ev 1 ünvanında fəaliyyət göstərən, fiziki şəxs İsayev Abuzər Vahid oğluna məxsus “Vahid” marketdə Agentlik əməkdaşları tərəfindən plandankənar yoxlama keçirilib. Baxış zamanı qida təhlükəsizliyi sahəsində normativ hüquqi aktların, sanitariya norma və qaydaların pozulduğu aşkar olunub. Faktla bağlı müəssisə rəhbərliyi barəsində inzibati protokol tərtib edilib, nöqsanlar aradan qaldırılanadək müəssisənin fəaliyyəti müvəqqəti məhdudlaşdırılıb.